## *Qara səhifələr*

Bu kitabda
Bir səhifə — 20 yanvar, Bir
səhifə — Daşaltı, Bir səhifə
Xocalı... Sonra Laçın,
Şuşa
Bilmək olmur necə boşaldı. Hərəsi bir
Cür yazıldı tarixə,
Amma hamısının
bir rəngi var: qara.
Faciəm elə dərin,
Bilmək olmur - elə uzundu,
Bayraqlardan onlara keçdi bu rəng, Yoxsa
onlardan bayraqlara? Bildiyim odur ki,
Qara lülələrin
işığa kor gözüylə,
Tanklaın, topların
mərmi oduyla,
güllə közüylə
yazıldı bu qara,
mübham, məchul səhifələr.
Qəm yemə könlüm,
Ağlama, gözüm,
Dünyaya axır bu səhifələri
oxuya bilən bir oğul gələr.

Qudyalçaylı M. Qara səhifələr : şeirlər // Azərbaycan harayı. - Bakı : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S.257-258.